


*Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi*

Qəzet 1933-cü ildən çıxır | № 7 (5827) | Noyabr-Dekabr 2019-cu il | Qiyməti 60 qəpik

# PREZİDENT İLHAM ƏLİYEV: "2019-CU İLDƏ ÖLKƏMİZ SABİTLİK, ƏMİN-AMANLIQ ŞƏRAİTİNDƏ YAŞAMIŞDIR".



- *Noyabrın 11-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda ağacəkmə aksiyasında iştirak ediblər.*
- *Noyabrın 14-də Prezident İlham Əliyev Dünya dini liderlərinin II Sammitinin açılışı mərasimində iştirak edib.*
- *Noyabrın 14-də Prezident İlham Əliyevin adından Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarının şərəfinə ziyafət verilib.*
- *Noyabrın 15-də Prezident İlham Əliyev məşhur yumorist Maksim Qalkinin Heydər Əliyev Mərkəzində yaradıcılıq axşamına baxıb.*
- *Noyabrın 19-da Prezident İlham Əliyev Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışında iştirak edib*
- *Noyabrın 21-də Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib.*
- *Noyabrın 21-də Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.*
- *Noyabrın 21-də Prezident İlham Əliyev Sumqayıtda "Nizami" kinoteatrının yeni binasının açılışında iştirak edib.*
- *Noyabrın 21-də Prezident İlham Əliyev Sumqayıtda Muğam Mərkəzinin açılışında iştirak edib.*
- *Noyabrın 21-də Prezident İlham Əliyev Sumqayıt Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub.*
- *Noyabrın 26-da Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edib.*
- *Noyabrın 30-da Prezident İlham Əliyev Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimdə iştirak edib.*
- *Noyabrın 30-da Prezident İlham Əliyev Türkiyənin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimdə iştirak edib.*
- *Dekabrın 2-də Prezident İlham Əliyev Dilarə Seyidzadəyə "Şərəf" ordenini təqdim edib.*
- *Dekabrın 4-də Prezident İlham Əliyev "Bakutel-2019" sərgisi ilə tanış olub.*
- *Dekabrın 5-də Prezident İlham Əliyev Şamaxı rayonuna səfərə gəlib, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 101-117-ci kilometrlik hissəsinin və Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.*
- *Dekabrın 5-də Prezident İlham Əliyev Şamaxıda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş binada yaradılmış şəraitlə tanış olub.*
- *Dekabrın 6-da Prezident İlham Əliyev Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olub.*
- *Dekabrın 6-da Prezident İlham Əliyev Şamaxı rayonunda ağacəkmə aksiyasında iştirak edib*
- *Dekabrın 10-da Prezident İlham Əliyev İordaniyanın Kralı II Abdullahın rəsmi qarşılanma mərasimində iştirak edib.*
- *Dekabrın 10-da Prezident İlham Əliyev İordaniya Kralı II Abdullah ilə işçi nahar edib.*
- *Dekabrın 12-də Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib.*
- *Dekabrın 13-də Prezident İlham Əliyev Bakı gəmiqayırma zavodunda inşa olunmuş ilk tankerin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib.*
- *Dekabrın 17-də Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Vladimir Zelenskinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.*
- *Dekabrın 19-da Prezident İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirə keçirilib.*
- *Dekabrın 20-də Prezident İlham Əliyev Rusiya Federasiyasına səfərə gəlib, Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib.*
- *Dekabrın 23-də Prezident İlham Əliyev növbəti bələdiyyə seçkiləri günündə Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində səs verib.*
- *Dekabrın 23-də Prezident İlham Əliyev bir qrup yerli jurnalistə ilin yekunları ilə əlaqədar müsahibə verib.*
- *Dekabrın 24-də Prezident İlham Əliyev 2 saylı DOST mərkəzinin açılışında iştirak edib.*
- *Dekabrın 24-də Prezident İlham Əliyev Qarabağ müharibəsi əlillərinə, onlara bərabər tutulan şəxslərə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edib.*
- *Dekabrın 25-də Prezident İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*
- *Dekabrın 26-da Prezident İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub.*
- *Dekabrın 27-də Prezident İlham Əliyev "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olub.*
- *Dekabrın 29-da Prezident İlham Əliyev "Müşfiq" və "Zabrat" yarımstansiyalarının istifadəyə verilməsi mərasimində iştirak edib.*

*2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Bu il iqtisadiyyat artmışdır, iqtisadiyyatın qeyri-neft sektoru 3 faizdən çox artmışdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu da dünya miqyasında 9-cu göstəricidir və bundan sonrakı illərdə xarici borcumuz daha da aşağı düşəcək. Bizim valyuta ehtiyatlarımız bu il 4,5 milyard dollar artmışdır və rekord həddə – 50 milyard dollara çatmışdır. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, bu, ölkəmizin iqtisadi və maliyyə imkanlarının dayanıqlılığını ifadə edir. Sənaye istehsalı artmışdır, xüsusilə qeyri-neft sektorunda sənaye artımı 14 faiz təşkil etmişdir. Kənd təsərrüfatında 7 faiz artım vardır. Yəni, bütün əsas istiqamətlər üzrə ölkəmizin uğurlu inkişafı reallıqdır.*

*İLHAM ƏLİYEV*
*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ*
*BAKI ŞƏHƏRİ, 31 DEKABR 2019-CU İL*

## DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV AYRI-AYRI GÜNLƏRDƏ RAYONUN KƏNDLƏRİNDƏ, YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏ, ƏRAZİLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARINI KEÇİRİB



**NOYABRIN 6-DA DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ NÖVBƏTİ SƏYYAR QƏBULU QARAQULLAR İNZİBATİ ƏRAZİ VAHİDİNƏ DAXİL OLAN ALAXANÇALLI KƏNDİNDƏ OLUB.**

Görüşdə Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev səyyar qəbul-görüşdə çıxış edib. O, çıxışında deyib:

– Əvvəlki səyyar qəbullarda olduğu kimi bugünkü görüşümüzün də əsas məqsədi siz kənd sakinlərini narahat edən məsələlərin həll edilməsidir. Vurğulamaq istəyirəm ki, vətəndaşların narahatlığına səbəb olan məsələləri sizin öz dilinizdən eşidərək öyrənib, daxili imkanlar hesabına operativ yerində həll edirik, ehtiyac gəldiyi halda isə Prezident Administrasiyasına lazımi məlumat verməklə aidiyyəti nazirliklər və təşkilatlar qarşısında məsələləri qaldırırıq və icrası nəzarətə götürülür.

Daşkəsən rayonunda da regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən həm rayon mərkəzində, həm də kəndlərdə geniş abadlıq-quruculuq işləri aparılır. Belə ki, ötən dövrlərdə Alaxançallı kəndinə gələn yol təmir edilmiş, içməli su və elektrik enerjisi ilə fasiləsiz təminat sahəsində mövcud olan problemlər aradan qaldırılmışdır.

Sosial sahədə də Alaxançallı kəndində bir sıra işlər görülmüşdür. Xeyir-şər məclislərini keçirmək üçün mağar dəsti siz kənd sakinlərin istifadəsinə verilmişdir. Kəndin qazlaşdırılması istiqamətində intensiv işlər görülür və bu problem yaxın vaxtlarda tam öz həllini tapacaqdır. Təmiz hava, çay və yaşıllığın olması, zəngin fauna, Murovdağ silsiləsi boyunca uzanan meşə massivləri yay aylarında təbiət həvəskarlarını Daşkəsənə, o cümlədən Alaxançallı kəndinə cəlb edir. Kənddə onlarla gur çeşməli, şəffaf, müalicəvi əhəmiyyətli mineral bulaqlar vardır. Onların sırasında Turşsu bulağı daha məşhurdur. Yaxın vaxtlarda daxili imkanlar hesabına Turşsu bulağına gedən yolda abadlıq işlərinin görülməsi və iki körpünün salınması üçün tapşırıq verilib.

Alaxançallı kəndi turizm baxımdan böyük potensiala malikdir və daxili imkanlar hesabına bu istiqamətdə artıq müvafiq təqdirəlayiq layihələr icra edilmişdir. Kənd ərazisində turistlərin qəbul edilməsi məqsədilə pilot olaraq seçilmiş 10 evdə təmir işləri aparılmış, həmin evlərin sahiblərinə təlimlər keçirilmiş və kəndin təbliğat işləri aparılmışdır.

Bütün bunlar ölkə başçısı cənab İlham Əliyevin rayon əhalisinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Görüş zamanı kənd sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alınıb. Müraciətlər yarasız elektrik dirəklərinin dəyişdirilməsi, qaz xəttinin çəkilməsi, tibb məntəqəsinin tikilməsi, mobil rabitənin keyfiyyətinin yaxşılaşdırılması və şəxsi məsələlər barədə olub. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tapşırıqlarını verib.

Əksər müraciətlər yerində həll edilib.

Qəbul-görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev tərəfindən YAP sıralarına yeni qəbul olunmuş bir qrup gəncə Partiyanın üzvlük vəsiqələri təqdim olunub.

Görüşdə çıxış edən sakinlər Daşkəsən rayonunun sosial-iqtisadi inkişafı sahəsində görülən işləri yüksək qiymətləndirərək göstərilən diqqətə və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**NOYABRIN 13-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV TƏSDİQ OLUNMUŞ QRAFİKƏ UYĞUN OLARAQ QUŞÇU QƏSƏBƏSİNDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBULUNU KEÇİRİB.**

Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, sakinlər və KİV mənsubları iştirak ediblər.

Qəbulda çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev Prezident cənab İlham Əliyevin rəhbərliyi altında son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gücləndiyini, əldə edilən iqtisadi və siyasi uğurlar nəticəsində ölkəmizdə əhalinin həyat səviyyəsinin, rifahının daha da yaxşılaşdığını



diqqətə çatdırıb.

Əhəd Abıyev qəbul olunan dövlət proqramlarının icrası nəticəsində Daşkəsən rayonunda həyata keçirilən abadlıq-quruculuq işləri barədə geniş məlumat verib. Qeyd edib ki, Daşkəsəndə yeni-yeni məktəb binaları, səhiyyə ocaqları və digər sosial obyektlər tikilib, ən ucqar dağlıq ərazidə yerləşən yaşayış məntəqələrinə yollar çəkilib, körpülər salınıb, qazlaşdırma və su təchizatı layihələri icra olunub. Əhalinin fasiləsiz elektrik enerjisi edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Rayon rəhbəri vurğulayıb ki, həmin tədbirlər çərçivəsində ötən dövrlərdə Quşçu qəsəbəsində fəaliyyət göstərən uşaq bağçası əsaslı təmir edilib, ərazi qazlaşdırılıb. Respublika əhəmiyyətli Gəncə-Daşkəsən avtomobil yolunun 27-ci km-dən ayrılan yerli əhəmiyyətli Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikinti işlərində son tamamlama işləri görülür. Quşçu-Çovdar-Çaykənd avtomobil yolunun tikintisi ilə vətəndaşların gediş-gəlişi rahatlaşacaq, yük və sərnişin daşınması asanlaşacaq, yolboyu 6 yaşayış məntəqəsində yaşayan 3 mindən artıq vətəndaşın həyat şəraitinin yaxşılaşmasına birbaşa təsir edən kənd təsərrüfatı inkişaf edəcəkdir. Bununla yanaşı, yeni tikilən avtomobil yolu bölgədə turizmin inkişafına geniş imkanlar yaradacaqdır.

Rayon rəhbəri həmçinin qazanılan uğurlardan, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən və bu sahədə qarşıda duran vəzifələrdən də ətraflı danışıb.

Daha sonra sakinlərin müraciətləri dinlənilib. Sakinlərin müraciətləri yeni su xəttinin çəkilməsi, işlə təmin olunma, mənzil şəraitinin yaxşılaşdırılması və digər məsələlər barədə olub.

Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev qaldırılan məsələlərin və müraciətlərin yerində araşdırılaraq həll olunması məqsədilə aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tövsiyə və tapşırıqlarını verib.

Qəsəbə sakinləri səyyar görüşlərin keçirilməsinin çox böyük əhəmiyyət daşıdığını, əhali tərəfindən qaldırılan problemlərin həll olunmasında müstəsna kömək etdiyini bildiriblər. Ötən görüşlərdən sonra qəsəbədə böyük genişmiqyaslı abadlıq-quruculuq işlərin aparıldığını, qaldırılan problemlərin həll olunduğunu bildiriblər.

Sakinlər göstərilən diqqət və qayğıya görə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***

**NOYABRIN 20-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV RAYONUN HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ, ƏLAQƏDAR İDARƏ VƏ TƏŞKİLAT RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ ZAĞALI KƏNDİNDƏ ƏHALİNİN PROBLEMLƏRİNİN YERİNDƏ ÖYRƏNİLMƏSİ, HƏLL EDİLMƏSİ MƏQSƏDİLƏ NÖVBƏTİ SƏYYAR QƏBUL-GÖRÜŞÜNÜ KEÇİRİB.**

Səyyar qəbulda çıxış edən Əhəd Abıyev bu cür görüşlərin Prezident cənab İlham Əliyevin tapşırığı ilə mütəmadi olaraq keçirildiyini bildirib. Əhəd Abıyev Prezident cənab İlham Əliyevin vətəndaş müraciətlərinə həssas münasibət göstərmək barədə tapşırıqlarının Daşkəsən rayonunda diqqət mərkəzində saxlanıldığını vurğulayıb. Deyib ki, vətəndaşların problemlərinin həlli, ilk növbədə, onların qayğılarını vaxtında öyrənməkdən, qaldırılan məsələni, edilən xahiş və təklifi diqqətlə araşdırmaqdan asılıdır.

Görüşdə rayon rəhbəri turizm imkanları böyük olan Zağalı kəndi ərazisində aparılan abadlıq-quruculuq işlərindən, kəndin qazlaşdırılmasından, elektrik təchizatının yeniləşdirilməsindən söhbət açıb. Xatırladıb ki, qış aylarında güclü qar və külək elektrik verilişində fasilələr yaradırdı. Problemin həlli məqsədilə elektrik naqillərinin SİP kabellərlə əvəzlənməsi və bir çox dayaqların dəyişdirilməsi işləri həyata keçirilmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev xüsusilə diqqətə çatdırıb ki, Prezident cənab İlham Əliyevin 2 aprel 2012-ci il tarixli Sərəncamı ilə 3 min nəfərdən çox əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Zağalı-Kollu avtomobil yolunun tikintisinin yüksək səviyyədə aparılaraq başa çatdırılması nəticəsində kəndin bu sahədə olan problemi də tam öz həllini tapmış, insanların gediş-gəlişi asanlaşmış, ərazidə yeni iş yerlərinin yaranmasına, kənd camaatının daha yaxşı yaşamasına, turizmin inkişafına və təsərrüfatların genişləndirməsinə münbit şərait yaranmışdır.

Daha sonra vətəndaşların müraciətləri dinlənilib.

Kənd sakinləri müraciətlərində ərazidə qazlaşdırılma aparılarkən sayğaclaşdırılmamış evlərə də qaz xəttinin çəkilməsinə, işlə təminat və digər şəxsi problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin tapşırığı ilə ayrı-ayrı sahələrə dair vətəndaşların irəli sürdüyü müraciət, təklif və şikayətlərin əksəriyyəti yerində həll edilib, digərləri isə baxılması üçün nəzarətə götürülüb.

Səyyar qəbul zamanı çıxış edən Zağalı kənd sakinləri göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**PREZİDENT CƏNAB İLHAM ƏLİYEVİN ƏHALİNİN PROBLEMLƏRİNİN YERİNDƏ ÖYRƏNİLMƏSİ, HƏLL EDİLMƏSİ, VƏTƏNDAŞ-MƏMUR MÜNASİBƏTLƏRİNDƏ ŞƏFFAFLIĞIN TƏMİN EDİLMƏSİ BARƏDƏ TAPŞIRIQLARINA UYĞUN OLARAQ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV NOYABRIN 27-DƏ NÖVBƏTİ SƏYYAR-QƏBUL GÖRÜŞÜNÜ RAYONUN UCQAR DAĞLIQ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNDƏN OLAN PİRVERDİLƏR KƏNDİNDƏ KEÇİRİB.**

Görüşdə Rayon İcra Hakimiyyətinin məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət və digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Rayonun kənd və qəsəbələrində yaşayan əhali ilə mütəmadi olaraq görüşlərin keçirildiyini, bunun artıq ənənə xarakter daşıdığını vurğulayan Əhəd Abıyev səyyar qəbulların məqsədinin yerlərdə ortaya çıxan problemlərin öyrənilməsi və həlli istiqamətində operativ addımların atılması olduğunu bildirib.

Rayon rəhbəri çıxışında cari ildə Prezident cənab İlham Əliyev tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlar barədə də ətraflı məlumat verib.

Əhəd Abıyev ötən müddət ərzində Qabaqtəpə kənd inzibati ərazi vahidliyinə daxil olan Pirverdilər kəndində bir çox işlərin görüldüyünü, sakinlər tərəfindən qaldırılan problemlərin həlli istiqamətində mühüm addımların atıldığını qeyd edib. Diqqətə çatdırıb ki, Pirverdilər kəndi ərazisində rayonun daxili imkanları hesabına tikilmiş hər birinin ümumi uzunluğu 28.4 m, eni 11 m, avtomobillərin hərəkət hissəsi 8 m olan müasir tipli 2 ədəd körpü 2015-ci ilin 24 dekabrında – möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ad günündə sakinlərin istifadəsinə verilmişdir. Hazırda isə Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun əsaslı surətdə yenidənqurulmasında son tamamlama işləri görülür, o cümlədən Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun yenidən qurulması üçün müvafiq sənədlər işlənib hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Əhalinin elektrik enerjisi, rabitə və içməli su ilə təminatı, məşğulluğunun artırılması daim diqqətdə saxlanılır.

Sonra sakinlərin müraciətləri dinlənilib. Müraciətlər Pirverdilər-Astaf avtomobil yolunun təmiri, kəndarası yolda olan su keçidinin təmiri və digər şəxsi məsələlər barədə olub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin göstərişi ilə sakinlər tərəfindən qaldırılan məsələlərin mümkünləri yerində həll olunub, müəyyən vaxt və vəsait tələb edən digər məsələlərin həlli istiqamətində isə müvafiq tapşırıqlar verilib.

Kənd sakinləri hər zaman onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**DEKABRIN 4-DƏ PREZİDENT CƏNAB İLHAM ƏLİYEVİN TAPŞIRIQ VƏ TÖVSİYƏSİNƏ UYĞUN OLARAQ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEVİN NÖVBƏTİ SƏYYAR QƏBUL-GÖRÜŞÜ ALMALI KƏNDİNDƏ KEÇİRİLİB.**

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə təşkil olunan görüşdə sakinlərə dövlət başçısının yürütdüyü məqsədyönlü siyasət, son günlər dövlət məmurları haqqında söylədiyi fikirlər, vətəndaşlara göstərdiyi diqqət və qayğı, xüsusilə də əhalinin maddi rifah halının, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində verdiyi tapşırıq və tövsiyələr, Birinci vitse-prezident Mehriban



xanım Əliyevanın vətəndaşlara olan diqqət və qayğısından danışıb. Bildirib ki, əhalinin rifahının daha da yaxşılaşdırılmasına yönəlmiş tədbirlər Prezident cənab İlham Əliyevin rəhbərliyi altında bundan sonra da davam etdiriləcəkdir.

Rayon rəhbəri çıxışında Daşkəsənin sosial-iqtisadi inkişafı, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, o cümlədən son illər ərazidə görülmüş işlər barədə də məlumat verib. Xüsusilə diqqətə çatdırıb ki, Almalı kənd tam orta məktəbinin yararsız binası sökülərək əvəzində modul tipli bina quraşdırılmış və cari ilin sentyabrında istifadəyə verilmişdir.

Sonra vətəndaşların müraciətləri dinlənilib.

Sakinlər kəndə gələn avtomobil yolunun cari təmir olunması, qaz xəttinin çəkilməsi, içməli suyun mənbəyinin təmizlənməsi və təmir olunması, nasaz elektrik dayaqlarının dəyişdirilməsi və digər şəxsi məsələlər barədə müraciətlər ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev sakinlər tərəfindən səsləndirilən müraciətlərin bir qismini yerində həll edib, bəzilərinin həll edilməsi məqsədilə isə aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmasını tapşırıb.

Kənd sakinləri problemlərinin öyrənilməsi və həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEVİN NÖVBƏTİ SƏYYAR QƏBUL-GÖRÜŞÜ DEKABRIN 11-DƏ BAYAN KƏNDİNDƏ KEÇİRİLİB.**

Səyyar qəbulda rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Qəbulda çıxış edən Əhəd Abıyev Prezident cənab İlham Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən islahatların uğurlu nəticələrindən danışaraq qeyd edib: "2019-cu ilin əvvəlindən başlayaraq respublikamızda islahatların əhatə dairəsi daha da genişləndirilib. Təbii ki, görülən işlər, aparılan siyasət göz önündədir. Bu gün istər orta aylıq əmək haqqının yüksəldilməsi, digər sosial müavinətlərin artırılması, qayğıya ehtiyacı olan vətəndaşların problemlərinin həlli istiqamətində atılan addımlar öz real nəticələrini verir və bu, vətəndaşlarımızın sosial rifahının daha da yüksəlməsinə xidmət göstərir".

Ötən dövrlərdə Bayan kəndində aparılmış abadlıq-quruculuq işlərinə toxunan Əhəd Abıyev bildirib ki, 2 min nəfərdən çox əhalinin yaşadığı kəndin işıq, qaz, su, yol təchizatının yaxşılaşdırılması bağlı bir sıra tədbirlər görülüb. Belə ki, ötən ilin dekabrında kəndin qazlaşdırılması işləri tam başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. 4 ədəd yeni elektrik transformatoru quraşdırılıb. Bayan kənd ümumi orta məktəbinin binası yenidən tikilib. Bayan kəndinin turizm potensialından səmərəli istifadə edilməsi prioritet olaraq qarşıya qoyulduğundan bu məqsədlə pilot layihə çərçivəsində Bayan kənd sakinlərinə məxsus 10 ev seçilərək turistlərə icarəyə verilməsi üçün təmir edilib, müvafiq təlimlər keçirilib, kəndin təbliği ilə bağlı videoçarxlar hazırlanıb.

Görüş zamanı kənd sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alınıb. Müraciətlər kənd tam orta məktəbinin əsaslı təmir edilməsi, kəndarası yolların təmiri, yeni su xəttinin çəkilməsi, işlə təmin olunma və digər məsələlər ilə bağlı olub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə bağlı aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlarını verib.

İrəli sürülən müraciət, təklif və şikayətlərin bir qismi yerində həll edilib, digərləri isə həll edilməsi üçün nəzarətə götürülüb.

Qəbul-görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev tərəfindən YAP sıralarına yeni qəbul olunmuş sakinlərə Partiyanın üzvlük vəsiqələri təqdim olunub.

Səyyar qəbuldan razı qalan kənd sakinləri müraciətlərinə baxılmasına, qaldırdıqları məsələlərin yerində araşdırılmasına, onları narahat edən problemlərin həllinə görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**DEKABRIN 18-DƏ DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV RAYONUN HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ, ƏLAQƏDAR İDARƏ, MÜƏSSİSƏ VƏ TƏŞKİLAT RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ KƏMƏRQAYA KƏNDİNDƏ VƏTƏNDAŞLARIN NÖVBƏTİ SƏYYAR QƏBUL-GÖRÜŞÜNÜ KEÇİRİB.**

Səyyar qəbul-görüşü giriş sözü ilə Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev açaraq belə görüşlərin möhtərəm Prezident cənab İlham Əliyevin tapşırığı ilə rayonda mütəmadi olaraq keçirildiyini, vətəndaşların müraciətlərinə həssas münasibət göstərmək barədə tapşırıqların daim diqqət mərkəzində saxlanıldığını bildirib.

Əhəd Abıyev son illər ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlərdən, regionlara göstərilən diqqət və qayğıdan danışıb, Daşkəsən rayonunda, o cümlədən Kəmərqaya kəndində görülmüş işlər barədə geniş məlumat verib. O, çıxışında vurğulayıb ki, ötən illərdə Kəmərqaya kənd F.Ələsgərov adına tam orta məktəbdə, kəndin elektrik və rabitə xətlərində təmir-bərpa işləri aparılmış, yol infrastrukturu yaxşılaşdırılmış, bir sıra sosialyönümlü layihələr həyata keçirilmiş, ən əsası isə kəndin tezliklə qazlaşdırılması nəzərdə tutulmuşdur.

Rayon rəhbəri onu da bildirib ki, Kəmərqaya kəndi turistik potensiala malikdir və ildən-ilə kəndə istirahət üçün gələn yerli turistlərin sayı artmaqdadır. Bu məqsədlə də pilot layihə çərçivəsində kənddə 10 ev seçilmiş və həmin evlər artıq təmir edilərək turistlərin istifadəsinə verilmişdir.

Əhəd Abıyev sakinlərlə görüşündə vurğulamışdır ki, gələn həftə keçiriləcək Bələdiyyə seçkiləri ilə bağlı bu kənddən də namizədlər müəyyənləşib. Tam əminliyini bildirmişdir ki, bütün seçkilərdə olduğu kimi, bu seçki də şəffaf, demokratik və azad bir seçki olacaqdır. Kənd sakinləri seçkidə fəallıq göstərəcəklər.

Sonra sakinlərin müraciətləri dinlənilib. Sakinlər müraciətlərində kəndin qazlaşdırılmasını, yeni su xəttinin çəkilməsini, işlə təmin olunma, özünəməşğulluq proqramı çərçivəsində mal-qaranın verilməsi və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Əhəd Abıyev sakinlər tərəfindən qaldırılmış müraciətlərin icrasına dair aidiyyəti idarə, müəssisə və təşkilatlara tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib, bir qismi isə nəzarətə götürülüb.

Kəmərqaya kənd sakinləri görülən işlərə, yaradılan şəraitə, onlara göstərilən diqqət və qayğıya görə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***

**DEKABRIN 25-DƏ RAYONUN HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ, SƏHİYYƏ, TƏHSİL, MƏDƏNİYYƏT, XİDMƏT TƏŞKİLATLARININ RƏHBƏRLƏRİ VƏ SAKİNLƏRİN İŞTİRAKI İLƏ YUXARI DAŞKƏSƏN QƏSƏBƏSİNDƏ KEÇİRİLƏN NÖVBƏTİ SƏYYAR QƏBULDA DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV ƏVVƏLCƏ SAKİNLƏRİ QARŞIDAN GƏLƏN 31 DEKABR – DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB, XOŞ İSTƏKLƏRİNİ VƏ ARZULARINI BİLDİRİB.**

Əhəd Abıyev çıxışında Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və Daşkəsən rayonunda həyata keçirilən geniş miqyaslı quruculuq işləri, icra olunan layihələr, aparılan qətiyyətli islahatlar, həmçinin sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verib. Həmçinin Yuxarı Daşkəsən qəsəbə sakinləri ilə dəfələrlə görüşdüyünü və həmin görüşlərdə qaldırılan məsələlərin həlli istiqamətində mühüm işlərin görüldüyünü bildirib. Qeyd edib ki, qəsəbə əhalisi bu gün fasiləsiz olaraq elektrik enerjisi, qaz, rabitə, içməli su ilə təmin olunur, 200 yerlik tam orta məktəbin binası yenidən tikilib, ərazidə xeyli abadlıq işləri aparılıb.

Rayon rəhbəri qarşıda duran vəzifələr barədə də danışıb.

Sonra sakinlərin müraciətləri dinlənilib.

Müraciətlər qəsəbə daxili yolların asfaltlaşdırılması, köhnə elektrik dayaqlarının dəyişdirilməsi, işlə təmin olunma, uşaq bağçasının əsaslı təmir olunması və digər məsələlər ilə bağlı olub.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı



Əhəd Abıyev müraciətlərdə qaldırılan məsələlərin icrası ilə əlaqədar aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərlərinə tapşırıqlarını verib. Əksər müraciətlər yerində həll edilib, bir qismi də nəzarətə götürülüb.

Qəbul-görüşdə Əhəd Abıyev YAP sıralarına yeni qəbul olunmuş sakinlərə partiyanın üzvlük vəsiqələrini təqdim edib.

Qəsəbə sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək möhtərəm Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

**Vüqar MƏMMƏDOV**
**RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun müdiri**

## DAŞKƏSƏNDƏ NƏSİMİNİN 650 İLLİK YUBİLEYİ İLƏ BAĞLI AĞACƏKMƏ AKSİYASI KEÇİRİLİB

**Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü Daşkəsən rayonunda böyük razılıqla qarşılanıb.**

Keçirilən ağacəkmə aksiyasında Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının kollektivləri, ziyalılar, sakinlər və ictimaiyyət nümayəndələri həvəslə, yüksək əhval-ruhiyyə ilə iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ağacəkmə aksiyasında deyib: "Respublikamızın Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən bu nəcib və xeyirxah tədbir ölkəmizdə yeni yaşıllıq zonalarının salınmasına, Azərbaycanımızın daha da gözəlləşməsinə, zənginləşməsinə böyük töhfə verməklə yanaşı, mühüm bir hadisədir".

Havanın qarlı və şaxtalı olmasına baxmayaraq, 1200 nəfərdən çox daşkəsənlinin iştirak etdiyi aksiyada bir gündə 2500 ağac əkilib.

Bayram coşğusu ilə keçirilən ağacəkmə aksiyası Daşkəsən şəhərinin girəcəyində, rayonun Bayraq meydanında və müxtəlif ərazilərdə təşkil olunub.

Bir neçə gün əvvəl qabaqlayıcı tədbirlər görülərək kəndlərlə rayon mərkəzi arasında olan yollar texnikaların köməyi ilə qardan təmizlənib, nəzərdə tutulan ərazilərdə ağacların əkilməsi üçün çalalar qazılıb.

Aksiya çərçivəsində şam, ərik, göyrüş, tuya, ağcaqayın kimi ağaclar torpağa basdırılıb, dibləri doldurulub və suvarılıb.

Rayon musiqiçilərinin qara zurna və sazda ifaları tədbirə əlavə rəng qatıb.

**Elmar ƏLİYEV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı**













# DAŞKƏSƏN RAYONUNDA XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ XATİRƏSİ DƏRİN EHTİRAMLA YAD EDİLİB

**Dekabrın 12-də Daşkəsən rayon ictimaiyyətinin 3000 nəfərdən çox nümayəndəsi xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə rayon mərkəzində ucaldılmış abidəsi önünə hüznlü musiqi sədaları altında gül-çiçək dəstələri düzüb, dahi rəhbərə sonsuz hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.**



Gülqoyma mərasimindən sonra rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə ehsan süfrəsi təşkil olunub. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ümummilli lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra ehsan süfrəsində Ulu Öndərin şərəfli ömür yolundan, vətənimiz qarşısında tarixi xidmətlərindən danışıb. O deyib: "Daşkəsənlilər yaxşı bilirlər ki, Ulu Öndər həmişə xalqına, Vətəninə bağlı olmuş, öz cəsarəti, müdrikliyi, vətənpərvərliyi ilə xalqımızın keşiyində durmuş, ən çətin anlarda həyatını xalqımızın milli amallarına qurban verməyə hazır olduğunu dəfələrlə sübut etmişdir. Biz daşkəsənlilərin bu gün bura toplaşması ömrünü xalqının xoşbəxtliyinə həsr etmiş böyük, dahi Ulu Öndərin əziz xatirəsinə göstərilən dərin məhəbbət və ehtiramın bir ifadəsidir".

Digər çıxış edənlər də Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müasir, müstəqil Azərbaycan Respublikasının quruculuğu yolundakı şərəfli mübarizəsi barədə fikirlər söyləyiblər.

**Elmar ƏLİYEV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı**







# ƏHƏD ABIYEV DAŞKƏSƏN RAYONUNDA ƏDLİYYƏ İŞÇİLƏRİNİ PEŞƏ BAYRAMI GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK EDƏRƏK XÜSUSİ QEYD EDİB



**Noyabrın 22-də Daşkəsən rayonunda Ədliyyə işçilərinin peşə bayramı günü qeyd olunub.**

Bayram tədbirində rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının rəhbərləri, məhkəmə işçiləri, ədliyyə qulluqçuları, ağsaqqallar və ziyalılar, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları rayon mərkəzidə ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb Ulu Öndərin əziz xatirəsini anıblar.

Bundan sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu stendlərə baxıblar.

Rayonun Heydər Əliyev Mərkəzdə keçirilən tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev çıxış edib. O, çıxışında deyib:

– Çıxışıma başlamazdan öncə birmənalı olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti çox hörmətli Mehriban xanım Əliyeva Rusiya Federasiyasında rəsmi səfərdədir. Səfər çərçivəsində Mehriban xanım Əliyeva Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət edib, Rusiyanın yüksək hökumət, dövlət və ali rütbəli nümayəndələrinin iştirakı ilə görüşlər keçirib. Bu da hər iki ölkə arasında olan əməkdaşlıq, dostluq əlaqələrinin və mehriban qonşuluq münasibətlərinin, o cümlədən ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsinin, eyni zamanda da, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun ən yüksək səviyyədə olduğunu göstərir.

Daşkəsən Rayon Məhkəməsinin sədri hörmətli Əliyev Azad Allahverdi oğlu – sizi və kollektivinizi 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə başda hörmətli Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri hörmətli Ramiz Rzayev olmaqla səmimi qəlbdən təbrik edirəm, sizlərə möhkəm cansağlığı və şərəfli işinizdə yeni-yeni uğurlar arzulayıram.

Bildiyiniz kimi milli dövlətçiliyimizin inkişafında müstəsna rolu olan ədliyyə işçilərinin peşə bayramının qeyd edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu bayram günü ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsis olunmuşdur. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, zəngin ənənələrə malik Azərbaycanın ədliyyə orqanları sahəsində də əsaslı islahatlar aparılmağa başlandı. Bu dövrdə ulu öndərin bilavasitə sədrliyi ilə Hüquqi İslahat Komissiyası yaradıldı və qısa müddət ərzində hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən quruldu. Bütün hüquqi əsas qanunlar beynəlxalq hüquq normalarının tələbləri nəzərə alınmaqla ölkəmizdə yeni hüquqi qanunvericilik bazası yaradıldı.

Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuşdur. Ölkə başçısının insan hüquqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində Ədliyyə Nazirliyi öz inkişafının müasir mərhələsinə qədəm qoymuş, məhkəmə-hüquq islahatları prosesi keyfiyyətcə yeni səviyyəyə qalxmış, ədliyyə və məhkəmə infrastrukturu əhəmiyyətli dərəcədə yeniləşdirilmişdir.

2017-ci ildə ədliyyə naziri hörmətli Fikrət Məmmədov Daşkəsən rayonunda vətəndaşların qəbulu keçirmişdir. Səfər zamanı hörmətli ədliyyə naziri Daşkəsən Rayon Məhkəməsinin əsaslı təmir olunmuş inzibati binasında olaraq rayonun məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti, onların iş şəraiti ilə tanış olmuş, hakim və ədliyyə işçiləri ilə müşavirə keçirmiş, öz tapşırıq və tövsiyələrini vermişdir.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi və bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlətçilik amallarına sadiq qalaraq ölkəmizin hərtərəfli tərəqqisində və demokratik-hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimizə layiqli yardımçı olmaq üçün tam əminəm ki, bundan sonra da Daşkəsən Rayon Məhkəməsinin sədri Azad müəllim və kollektivi əzmkarlıqla və məsuliyyətlə çalışacaqlar.

Bir daha da başda Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının Sədri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri hörmətli Ramiz Rzayev olmaqla, Daşkəsən Rayon Məhkəməsini və ədliyyə işçilərini 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə Daşkəsən rayon ictimaiyyəti və şəxsən öz adımdan



ürəkdən təbrik edir, sizlərə şərəfli işlərinizdə nailiyyətlər arzulayıram.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyevin çıxışından sonra Daşkəsən Rayon Məhkəməsinin sədri Azad Əliyev çıxış edərək başda Azərbaycan Respublikasının Ədliyyə Naziri, Məhkəmə-Hüquq Şurasının Sədri Fikrət Məmmədov olmaqla, bütün ədliyyə işçilərini peşə bayramı günü münasibətilə təbrik edib işlərində yeni-yeni müvəffəqiyyətlər arzulayıb. Respublikada aparılan uğurlu məhkəmə-hüquq islahatları və ədliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyi, qanunun aliliyinin təmin edilməsi ilə bağlı mütərəqqi hüquqi qanunvericilik bazasının yaradılması barədə çıxışında geniş məlumat verən A.Əliyev göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə bütün kollektivi adından minnətdarlığını bildirib.

Tədbirdə iştirak edən rayon ictimaiyyəti nümayəndələri ədliyyə orqanları əməkdaşlarını peşə bayramları günü münasibətilə təbrik ediblər.

Sonda xatirə şəkli çəkilib

**Ruslan MƏMMƏDƏLİYEV**
**RİHBA-nın Hüquq şöbəsinin məsləhətçisi**

# DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ƏHƏD ABIYEV ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİB



**Dekabrın 5-də Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev rayonun Polis Şöbəsinin rəisi Azay Ağayev və SHXÇDX-nin rayon bölməsinin rəisi Aqşin Xancanovla birgə 1993-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə şəhid olmuş hərbi qulluqçu Vəliyev Zülfü Yaqub oğlunun ailəsinə baş çəkib, şaxtalı hava ilə əlaqədar məişət şəraiti və ehtiyacları ilə maraqlanıb, maddi köməklik göstərib.**

Daşkəsən şəhərində yaşayan şəhidin anası Tahirə Vəliyeva ilə görüşən, onunla çay süfrəsi arxasında söhbət edən rayon rəhbəri bildirib ki, Vətən uğrunda şəhid olanların həyatı gənclərə örnək təşkil etməlidir. "Bütün Azərbaycan xalqı onların ruhu qarşısında baş əyir. Şəhidlərimiz millətimizin və tariximizin yaddaşında daim yaşayacaq və böyük sevgi ilə xatırlanacaqlar. Şəhid Zülfü Vəliyev düşmənlə vuruşaraq torpaqlarımızı qoruyub və şəhid olub. Daşkəsəndə onu tanıyanlar və hərbi xidmət yoldaşları onu mərd, vətənpərvər bir oğul kimi xatırlayırlar" – deyə Əhəd Abıyev şəhidə Allahdan rəhmət diləyib, ailə üzvlərinə və yaxınlarına başsağlığı verib.

Əhəd Abıyev Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin qisasının tezliklə alınacağını və düşmənə hər an layiqli cavab veriləcəyini qeyd edib.

Şəhid anası Tahirə Vəliyeva torpaqlarımızın müdafiəsi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlət tərəfindən daim göstərilən xüsusi diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib.

**Ruslan MƏMMƏDƏLİYEV**
**RİHBA-nın Hüquq şöbəsinin məsləhətçisi**

# DAŞKƏSƏNDƏ İCBARİ TİBBİ SIĞORTAYA KEÇİDLƏ ƏLAQƏDAR MAARİFLƏNDİRMƏ TƏDBİRİ KEÇİRİLİB



**Dekabrın 27-də Daşkəsən Rayon İcra Hakimiyyətinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə "Əhalinin icbari tibbi sığorta haqqında maarifləndirilməsi" mövzusunda görüş keçirilib. Tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçiləri, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları Elvin Abbasov və Azər Dəmirov, ərazi icra nümayəndələri, idarə, müəssisə və təşkilatların əməkdaşları, məktəb və uşaq bağçalarının direktorları, rayon mərkəzi xəstəxanasının işçiləri, rayon ərazisində fəaliyyət göstərən sahibkarlar və sakinlər iştirak ediblər.**

Giriş nitqi ilə çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Elmar Əliyev 2020-ci ildə ölkəmizdə tətbiq olunacaq icbari tibbi sığortanın əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində vətəndaşlarımız, onların rifah halının yüksəldilməsi, insanların gündəlik qayğıları durur. Azərbaycan əhalisinin sağlamlığının qorunması dövlətimizin əsas daxili siyasət istiqamətlərindədir və Prezident cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Azərbaycanda icbari tibbi sığortanın tətbiqi artıq hədəf deyil, reallıqdır və bu reallıqdan milyonlarla vətəndaşımız çox tezliklə faydalanacaqdır.

Agentliyin əməkdaşları iştirakçılara icbari tibbi sığortanın xidmətlər zərfi, sığortahaqları, azadolma məbləği və s. barədə məlumat veriblər. Bildirilib ki, baza hissəyə aid olan ilkin səhiyyə xidməti, təcili və təxirəsalınmaz tibbi yardım xidmətindən istifadə bütün vətəndaşlar üçün ödənişsizdir. Xidmətlər zərfinin əlavə hissəsinə aid olan ixtisaslaşdırılmış tibbi yardımdan istifadə etmək üçün isə sığortahaqqı ödənilməlidir. Eyni zamanda, bildirilib ki, imtiyazlı əhali qrupları sığortahaqqından azaddırlar.

Sonda vətəndaşları maraqlandıran suallar cavablandırılıb və iştirakçılara maarifləndirici bukletlər paylanılıb.



**Orxan HƏSƏNOV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi**

# DAŞKƏSƏNDƏ 24 DEKABR PREZİDENT CƏNAB İLHAM ƏLİYEVİN AD GÜNÜNDƏ ÇOXSAYLI ƏHALİNİN YAŞADIĞI 3 QƏSƏBƏYƏ TƏBİİ QAZIN VERİLMƏSİNİN MÖHTƏŞƏM AÇILIŞ MƏRASİMİ OLUB



**Daşkəsən rayonunun Quşçu, Quşçu körpüsü və Daşkəsən qəsəbələrinə ilk dəfə təbii qazın verilməsi münasibətilə keçirilən təntənəli açılış mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin və SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri, qəsəbə sakinləri və KİV mənsubları iştirak ediblər.**

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev tədbirdə çıxış edib. O, çıxışında deyib:

– Dekabrın 24-də Quşçu, Quşçu körpüsü və Daşkəsən qəsəbələrinə ilk dəfə təbii qazın verilməsi münasibəti ilə keçirilən təntənəli açılış mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin əməkdaşları, "Azəriqazın" regional nümayəndəsi Xaliq Namazov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, təşkilat və müəssisə rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və qəsəbə sakinləri iştirak edirlər.

Bildiyiniz kimi Daşkəsən rayonunun iqlim şəraiti soyuq olan dağlıq yaşayış məntəqələri Quşçu qəsəbəsinə, Quşçu körpüsü qəsəbəsinə və Daşkəsən qəsəbəsinə ilk dəfə təbii qaz verilir. Bu qazlaşdırma işlərinin görülməsi möhtərəm Prezidentimiz cənab İlham Əliyevin birbaşa tapşırıq və tövsiyələri əsasında həyata keçirilir.



Azərbaycanda həyata keçirilən ardıcıl və məqsədyönlü sosial layihələr, o cümlədən Daşkəsən rayonunda yeni il ərəfəsində qəsəbə sakinlərinə bu gün təbii qazın verilməsi vətəndaşlarımızın rifahının yüksəldilməsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Bütün qəsəbə sakinləri təbii qazın ilk dəfə olaraq verilməsi ilə əlaqədar byük ruh yüksəkliyi ilə sevinclərini xoş sözlərlə ifadə edirlər və bu göstərilən diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə təşəkkürlərini və dərin minnətdarlıqlarını bildirirlər.

Əminliklə qeyd etmək istəyirəm ki, rayonumuzun qazlaşdırılmamış digər kəndlərinə və qəsəbələrinə təbii qaz xətlərinin çəkilməsi proqramı davam etdiriləcək, tezliklə rayonumuzun bütün yaşayış məntəqələri mavi yanacaqla təmin olunacaqdır.

Rayonun qəsəbələrində qazın olmaması insanları çox narahat edən məsələ idi. İndi Daşkəsənin ən ucqar dağ kəndlərinə təbii qaz xətləri çəkilir. Yaşayış məntəqələrinin qazlaşdırma işləri intensiv olaraq davam etdirilir. Belə ki, bu problemli qazlaşdırma məsələləri də ardıcıl olaraq öz müsbət həllini tapır.



Bu gün cənab Prezidentimiz bu qazın verilməsi ilə qəsəbə sakinlərinin sosialyönümlü problemini həll etməklə yanaşı, həm də ailələrə çox böyük sevinc, xoşbəxtlik bəxş etdi. Bu əlamətdar qazın açılışı günü, 24-ü dekabr, məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyevin doğum gününə təsadüf edir.

Bu əziz ad günü münasibəti ilə biz və bütün daşkəsənlilər adından Ali Baş Komandan, regionun güclü dövlət lideri, dünya şöhrətli möhtərəm Prezidentimiz cənab İlham Əliyevə uzun ömür, möhkəm can sağlığı, ailəsinə xoşbəxtlik arzulayırıq. Ümummilli maraqlarla xalqa yüksək xidmət göstərən, beynəlxalq aləmdə ölkəmizin mövqeyini daha da möhkəmləndirən siyasi xadim Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva ilə vətənimizin çiçəklənməsi və qüdrətinin artması naminə məqsədyönlü dövləti fəaliyyətlərində və qarşıdan gələn Yeni ildə onlara uğurlu qələbələr, nailiyyətlər diləyirik, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edirik.

Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Müstəqil Azərbaycan dünyada uğurla inkişaf edən ölkələr sırasındadır. Prezident cənab İlham Əliyev müasir idarəetmə yolu ilə regionlarda iqtisadiyyatı gücləndirir və ölkəmiz sosial-iqtisadi inkişaf yolu ilə bütün sahələr üzrə inamla irəliləyir. Çünki möhtərəm Prezidentimizin siyasətinin



mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır.

Allah Prezidentimizi qorusun, cənab Prezidentimiz də dövlətimizi və xalqımızı qorusun!

Müasir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə eşq olsun!

Ad günü də mübarək olsun!

Tədbirdə "Azəriqaz" İstehsalat Birliyinin Şəmkir regional qaz istismar idarəsinin rəisi Xaliq Namazov və Daşkəsən Rayon Ağsaqqallar Şurasının sədri Saleh Qurbanov da nitq söyləyiblər. Çıxış edənlər əhalinin sosial problemlərinin həllinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Bildiriblər ki, ümumilikdə 284 abonenti olan Quşçu, Quşçu körpüsü və Daşkəsən qəsəbələrinə uzunluğu 14 min 2 yüz 42 metr müxtəlif diametrli metal borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, hər bir evə sayğac, fərdi tənzimləyici quraşdırılıb və sakinlər fasiləsiz təbii qazla təmin olunubdur.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev kənd sakinlərinin sürəkli alqışları ilə rayonun



Quşçu, Quşçu körpüsü və Daşkəsən qəsəbələrinə ilk dəfə təbii qaz verilməsinin rəmzi əlaməti olan məşəli alovlandırıb.

Açılış mərasimindən sonra Əhəd Abıyev Quşçu qəsəbə sakini Əsgərov Arzu Həşim oğlunun evində qazın verilməsi ilə yerində tanış olub.

**Elmar ƏLİYEV**
**RİHBA-nın İctimai-siyasi və humanita məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı**

# DAŞKƏSƏNDƏ AZƏRBAYCAN AVTOMOBİL YOLLARI DÖVLƏT AGENTLİYİNİN İDARƏ HEYƏTİNİN SƏDR MÜAVİNİ ƏVƏZ QOCAYEV VƏTƏNDAŞLARI QƏBUL EDİB



**Noyabrın 20-də Daşkəsən rayonunda mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) idarə heyətinin sədr müavini Əvəz Qocayev vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl AAYDA-nın idarə heyətinin sədr müavini Əvəz Qocayev və Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavinləri Cavanşir Qocayev və Namiq Süleymanov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Keçirilən qəbulda Daşkəsən rayonundan olan vətəndaşların müraciətlərinə baxılıb. Müraciətlər əsasən kəndlərarası avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Hər bir vətəndaşın müraciəti dinlənilərək qaldırılan məsələlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.



Daşkəsən rayon sakinləri bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıq ediblər.

**Vüqar MƏMMƏDOV**
**RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun müdiri**

## "AZƏRBAYCAN QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ, VETERANLARI VƏ ŞƏHİD AİLƏLƏRİ" İCTİMAİ BİRLİYİNİN DAŞKƏSƏN RAYON FİLİALININ HESABAT YIĞINCAĞI KEÇİRİLİB

**Noyabrın 22-də "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Daşkəsən rayon filialının 2015-2019-cu illəri əhatə edən hesabat iclası keçirilib.**

Hesabat yığıncağında Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Elmar Əliyev, rayon filialının rəhbəri Bakir Qurbanov, SHXÇDX-nin Daşkəsən rayon bölməsinin əməkdaşı Asim Abdullayev, Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri iştirak ediblər.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan toplantıda müasir, müstəqil Azərbaycan Respublikasının banisi ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gündəlik təsdiq olunduqdan sonra "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyin Daşkəsən rayon filialının sədri Bakir Qurbanov təşkilatın ötən beş ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib.





Ulu Öndər Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi bu siyasətin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Diqqətə çatdırıb ki, ölkə başçısının qayğısı fonunda fəaliyyət göstərən Birliyin məqsədi Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin və veteranlarının qanuni mənafelərini və hüquqlarını müdafiə etmək, müasir həyat şəraitinə uyğunlaşdırılmasına, sosial-iqtisadi və mənəvi problemlərinin daha səmərəli həll olunmasına köməklik göstərmək, onların əməkdaşlığını və qarşılıqlı əlaqələrini möhkəmləndirməkdən ibarətdir.

Sonra hesabat məruzəsi ətrafında çıxışlar olub. Qarabağ müharibəsi əlilləri Ənvər Əliyev, Saləddin Rüstəmov və digərləri çıxışlar edərək dövlətin onlara diqqət və qayğısından söz açıblar, İctimai Birliyin Daşkəsən rayon filialının hesabatını qənaətbəxş hesab ediblər. Onlar Prezident cənab İlham Əliyevin xüsusi qayğısı ilə əhatə olunmalarından, şəhid ailələrinin, əlilliyi olan şəxslərin rifah halının yaxşılaşdırılması sahəsində aparılan işlərdən, pensiya, müavinət və təqaüdlərinin mütəmadi olaraq artırılmasından və cari ildə bu istiqamətdə inqilabi addımların atılmasından məmnunluqla bəhs ediblər. Hesabat dövründə rayon filialının nüfuzunun yüksəldilməsi, fəallığının artırılması istiqamətində mühüm işlərin görüldüyünü bildiriblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elmar Əliyev çıxışında bildirib ki, ölkə Prezidentinin tapşırıq və tövsiyəsinə uyğun olaraq Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev rayonda yaşayan Qarabağ müharibəsi veteranlarına, əlillərinə və şəhid ailələrinə daim qayğı, müraciətlərinə həssas münasibət göstərir, onlarla mütəmadi olaraq görüşlər keçirir. O, hazırda Daşkəsən rayonunda 82 nəfər Qarabağ müharibəsi əlilinin, 174 nəfər veteranın və 39 şəhid ailəsinin olduğunu diqqətə çatdırıb.

SHXÇDX-nin Daşkəsən rayon bölməsinin əməkdaşı Asim Abdullayev isə deyib ki, Prezident cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində veteranların sosial problemlərinin həlli onların fəallığının yüksəlməsinə, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində daha yaxından iştirakına müsbət təsir göstərib. O, gənclərdə vətənpərvərlik ruhunun gücləndirilməsi, döyüş hazırlığı və müdafiə qabiliyyətinin artırılması istiqamətində görülən işlərdən danışıb.

**Ruslan MƏMMƏDƏLİYEV**
**RİHBA-nın Hüquq şöbəsinin məsləhətçisi**

### VƏTƏNDAŞLARIN, SİYASİ PARTİYALARIN, SİYASİ PARTİYALAR BLOKLARININ, SEÇİCİLƏRİN TƏŞƏBBÜS QRUPLARININ MÜRACİƏTLƏRİ ƏSASINDA KÜTLƏVİ TƏDBİRLƏRİN KEÇİRİLMƏSİ MƏQSƏDİLƏ DAŞKƏSƏN RAYONUNUN YAŞAYIŞ MƏNTƏQƏLİNDƏ AYRILMIŞ YERLƏRİN SİYAHISI

| Sıra №-si | DSK-nın kodu | Açıq yer (ünvanı) | Qapalı yer (ünvanı) |
|---|---|---|---|
| 1. | 100 saylı Şəmkir-Daşkəsən | Daşkəsən şəhərinin girəcəyində fəaliyyət göstərməyən Avtovağzalın qarşısındakı meydan | Daşkəsən şəhəri Heydər Əliyev meydanı 3, Rayon Mədəniyyət Mərkəzi |
| 2. | 101 saylı Göygöl-Daşkəsən | Daşkəsən rayonu Xoşbulaq kəndi, Gənclərin təlim və istirahət mərkəzinin stadionu | Daşkəsən rayonu Xoşbulaq kəndi, Gənclərin təlim və istirahət mərkəzinin iclas zalı |

### DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI TƏRƏFİNDƏN 2020-Cİ İLİN YANVAR AYINDA YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ KEÇİRİLMƏSİ QRAFİKİ

| Sıra №-si | Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı | Qəbulların keçiriləcəyi yer | Nəzərdə tutulan keçirilmə tarixi | Qəbulda RİHBA-dan iştirak etməsi nəzərdə tutulan məsul şəxslər |
|---|---|---|---|---|
| 1. | Qaraqullar kəndi | Kənd tam orta məktəbinin binası | 07.01.2020-ci il saat 11:00 | M.Yolçuyev, S.Əhmədov, V.Məmmədov |
| 2. | Daşkəsən qəsəbəsi | Qəsəbə tam orta məktəbinin binası | 14.01.2020-ci il saat 11:00 | M.Yolçuyev, S.Əhmədov, V.Məmmədov |
| 3. | Əhmədli kəndi | Kənd ümumi orta məktəbinin binası | 16.01.2020-ci il saat 11:00 | M.Yolçuyev, S.Əhmədov, V.Məmmədov |
| 4. | Quşçu kəndi | Kənd tam orta məktəbinin binası | 22.01.2020-ci il saat 11:00 | M.Yolçuyev, S.Əhmədov, V.Məmmədov |

QEYD: Qəbulda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edəcəklər.

### DAŞKƏSƏN RAYON PROKURORU TƏRƏFİNDƏN 2020-Cİ İLİN YANVAR AYINDA YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYAR QƏBULLARININ KEÇİRİLMƏSİ CƏDVƏLİ

| Sıra №-si | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Qaraqullar kəndi | 07.01.2020-ci il saat 12:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Daşkəsən qəsəbəsi | 14.01.2020-ci il saat 12:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Əhmədli kəndi | 16.01.2020-ci il saat 12:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Quşçu kəndi | 22.01.2020-ci il saat 12:00 | Prokuror Maarif Hüseynov |

### ALLAH RƏHMƏT ELƏSİN!

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev və Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi RİHBA-nın İnformasiya təminatı və təhlil sektorunun aparıcı məsləhətçisi İlahə Xıdırovaya və YAP Daşkəsən rayon təşkilatının Aparat rəhbəri Sərdar Xıdırova

**ƏZİZLƏRİ ZÜLFÜQAROV ZİYAD MƏHƏRRƏM OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

***

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev və Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Səidə Hökmalıyevaya

**HƏYAT YOLDAŞI MƏMMƏDOV KAZIM YASİN OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

***

Daşkəsən Rayon Kommunal Müəssisləri Kombinatının direktoru Vaqif İsmayılov və KMK-nın kollektivi Səidə Hökmalıyevaya

**HƏYAT YOLDAŞI MƏMMƏDOV KAZIM YASİN OĞLUNUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirlər.

### ELAN

Daşkəsən rayon Dəstəfur kənd sakini Həsənova Kübrə Həsən qızının adına verilmiş torpağın JN:0054 (KOD 50604018) nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## DAŞKƏSƏN RAYON MƏKTƏBLİLƏRİ "ÖLKƏMİZİ TANIYAQ" MAARİFLƏNDİRİCİ TUR-AKSİYASINA QOŞULUBLAR



**Daşkəsən rayonundan olan məktəblilər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində noyabrın 18-də Quba-Qusar-Xaçmaz marşrutu üzrə yola salınıblar.**

Bu münasibətlə rayonun Heydər Əliyev meydanında yolasalma mərasimi keçirilib. Tur-aksiyanın təntənəli yolasalma mərasimində Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, Təhsil Şöbəsinin işçiləri, müəllimlər, valideynlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini Cavanşir Qocayev və digər çıxış edənlər yaradılmış yüksək şəraitə görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarının bildirərək şagirdlərə tövsiyələr verib, onlara uğurlu yol, maraqlı səyahət arzulayıblar. Belə tur-aksiyaların gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynadığı bildirilib, şagirdlərin dünyagörüşünün artırılmasında mühüm əhəmiyyət daşıdığı qeyd olunub.

Ulu Öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidə kompleksi qarşısına tər gül-çiçək dəstələri düzən 20 nəfər şagirddən ibarət qrup xüsusi avtobusla Quba şəhərinə yola düşüblər.

Noyabrın 21-dək davam edən tur-aksiya çərçivəsində şagirdlər Quba, Qusar və Xaçmaz rayonlarının tarixi abidələri, görməli yerləri və sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmaq şansı əldə ediblər. Onlar həmçinin "Ölkəmizi tanıyaq" devizi altında keçirilən intellektual-əyləncəli oyunlarda və yarışlarda iştirak ediblər.

**Elmar ƏLİYEV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı**





## DAŞKƏSƏNLİ GƏNC ŞAİR ETİBAR HƏSƏNZADƏ "NƏSİMİYƏ TÖHFƏ" ADLI TƏDBİRLƏ OXUCULARININ GÖRÜŞÜNƏ GƏLİB

**Dekabrın 16-da Daşkəsən rayon Mədəniyyət Mərkəzində daşkəsənli gənc şair Etibar Həsənzadənin "Nəsimiyə töhfə" adlı ədəbi gecəsi təşkil olunub.**

Tədbirdə Daşkəsən Rayon İcra Hakimiyyətinin əməkdaşları, rayon ziyalıları və ictimaiyyət nümayəndələri, gənc şairin qələm dostları iştirak ediblər.

Əvvəlcə Etibarın İmadəddin Nəsimiyə həsr olunmuş şeirinin videoçarxı nümayiş olunub.

Tədbirdə çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elmar Əliyev-Vüqarlı bildirib ki, Prezident cənab İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi və 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Sərəncamına uyğun olaraq ölkəmizin bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da silsilə tədbirlər keçirilir. Klassik Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, mütəfəkkir şair İmadəddin Nəsiminin insanın böyüklüyünə, onun gözəlliyinə, xalqın taleyinə və azadlıq arzularına həsr olunmuş şeirləri bu gün də dillər əzbəridir.

Etibar Həsənzadənin yaradıcılığı barədə danışan Elmar Əliyev-Vüqarlı qeyd edib ki, o, fiziki imkanlarının məhdud olmasına baxmayaraq, daha böyük nəcib işlərlə məşğul olur, həyata, vətəninə bağlılığı bütün gənclərə nümunədir. Etibar xoşbəxt gəncdir ki, öz fitri istedadı, qabiliyyəti ilə qısa vaxt ərzində geniş oxucu rəğbəti qazanmış, həmyaşıdlarından fərqlənməyi bacarmışdır.









Tədbirdə iştirak edə bilməyən görkəmli ədəbiyyatşünas alimlər video müraciət vasitəsilə Etibar Həsənzadənin yaradıcılığı və onun "Nəsimi" şeiri barədə öz yüksək fikirlərini çatdırıblar, haqqında xoş sözlər söyləyiblər.

Daha sonra Gəncə Dövlət Dram Teatrının aktyorları Nəsiminin qəzəllərini ifa ediblər.

Etibar Həsənzadə yaradıcılığına hər zaman diqqət və qayğı ilə yanaşdığı üçün Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevə təşəkkürünü bildirib.

**Orxan HƏSƏNOV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi**

## DAŞKƏSƏNDƏ MÖHTƏŞƏM İDMAN FESTİVALI KEÇİRİLİB

**Noyabrın 7-də Daşkəsən şəhər Heydər Əliyev meydanında çoxsaylı gənclərin təşəbbüsü ilə idman festivalı keçirilib.**

9 noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr edilmiş festival Daşkəsən Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə reallaşıb. Festivalda yüzlərlə rayon gənci iştirak edib.

İdman festivalı Dövlət Himnimizin səsləndirilməsi və bayraqla estafet yürüşü ilə başlayıb. Gənclərin başları üzərində vüqarla dalğalandırdığı Azərbaycan Bayraqları Daşkəsən şəhər Heydər Əliyev meydanını bəzəyib.

Festival çərçivəsində idmanın müxtəlif növlərində yarışlar keçirilib. Yunan-Roma güləşi, boks, şahmat, stolüstü tennis və digər idman növləri üzrə müxtəlif yarışlarda 160-dək daşkəsənli idmançı gücünü sınayıb.

Daşkəsən Rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov festivalda çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrlərində bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirdiyini bildirib. Vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasəti nəticəsində respublikamızın bütün bölgələrində olduğu kimi, Daşkəsənin də sosial-iqtisadi və mədəni həyatında davamlı inkişaf əldə edilib.





S.Həsənov dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında son dövrlər Daşkəsəndə görülən işlərdən, rayonda idmanın inkişafına təkan verən tədbirlərdən danışıb, atletlərə uğurlar arzulayıb.

Festivalda gənclər həmçinin şeirlər oxuyublar, rəqs ediblər. Gənclərin kəndirdartma oyunu tamaşaçıların xüsusilə böyük marağına səbəb olub.

İdman festivalının iştirakçıları olan gənclər təşəbbüslərinin və ideyalarının hər zaman dəstəklənməsinə, onlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Festival idmançıların nümunəvi çıxışları ilə başa çatıb.

**Elmar ƏLİYEV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı**

## DAŞKƏSƏN RAYONUNDA BEYNƏLXALQ KÖNÜLLÜLƏR GÜNÜ MÜNASİBƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

**Dekabrın 5-də Daşkəsən rayonunda Azərbaycanın bütün şəhər və rayonlarını əhatə edən "Azərbaycan Könüllülük Həftəsi" çərçivəsində 5 dekabr – Beynəlxalq Könüllülər Günü münasibəti ilə gənclərlə görüş keçirilib.**

Daşkəsən Rayon İcra Hakimiyyəti və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Daşkəsən rayon Heydər Əliyev Mərkəzində təşkil olunan görüşdə müxtəlif təşkilatların könüllüləri və 40-a yaxın gənc iştirak edib.

Görüşdə çıxış edən Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Malik Ələsgərov gəncləri Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin adından salamlayıb və onları Beynəlxalq Könüllülər Günü münasibəti ilə təbrik edib. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nda və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq, ölkədə könüllülük hərəkatını inkişaf etdirmək və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN Könüllülər" şəbəkəsinin imkanlarından istifadə edərək gənclərin dövlət orqanlarında təcrübə keçməyə cəlb edilməsini vurğulayıb. Həmçinin son illərdə respublikamızda könüllülük fəaliyyətinin geniş vüsət aldığını, ölkəmizdə gənclər arasında könüllülük fəaliyyətinin artıq ənənəyə çevrildiyini, ölkəmizin ev sahibliyi etdiyi irimiqyaslı tədbirlərdə könüllü fəaliyyət göstərən gənclərimizin böyük uğura imza atmalarını Prezident cənab İlham Əliyevin könüllülərin fəaliyyətinə verdiyi yüksək qiymətin bariz nümunəsi olduğunu bildirib.

Rayon Gənclər və İdman İdarəsinin rəisi S.Həsənov isə deyib ki, gənclər siyasətini prioritet istiqamət olaraq müəyyən edən, gənclərin hərtərəfli inkişafı, onların milli-mənəvi dəyərlərə sadiqlik və vətənpərvərlik ruhunda tərbiyəsi məsələsini daim diqqət mərkəzində saxlayan Prezident cənab İlham Əliyevin respublikamızda könüllülük hərəkatının



genişləndirməsi, dövlət qurumlarında könüllü qruplarının təsis edilməsi və dəstəklənməsi ilə bağlı çağırışları, müvafiq qanunvericilik bazasının yaradılması ölkəmizdə könüllülük hərəkatının vüsət almasına şərait yaradıb.

Görüşdə könüllü gənclər də çıxış ediblər.

Daha sonra könüllülük fəaliyyətinə qoşulmaq istəyən gənclərin istəkləri dinlənilib.

**Malik ƏLƏSGƏROV**
**RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi**

## DAŞKƏSƏNDƏ GƏNCLƏRİN HƏRBİ XİDMƏTƏ HƏVƏSLƏNDİRİLMƏSİ MƏQSƏDİLƏ MƏDƏNİ-KÜTLƏVİ TƏDBİR KEÇİRİLİB

**Noyabrın 22-də Gənclər və İdman Nazirliyi Daşkəsən Rayon İcra Hakimiyyəti ilə birgə daşkəsənli gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədi ilə Daşkəsən rayon Mədəniyyət Mərkəzində mədəni-kütləvi tədbir keçirib.**

Tədbirdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin vətənpərvərlik və vətəndaşlıq sektorunun müdiri Əli Məmmədov, Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Orxan Həsənov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Daşkəsən rayon bölməsinin əməkdaşı Asim Abdullayev, Daşkəsən rayon Gənclər və İdman İdarəsinin rəisi Samir Həsənov və gənclər iştirak ediblər.

Gənclərdə vətənpərvərlik hissini daha da artırmaq, onları hərbi xidmətə həvəsləndirmək və çağırışçı gənclərin mənəvi-psixoloji durumunu yüksəltmək üçün keçirilən tədbir Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə çıxış edənlər gənclərin hərbi xidmətə həvəsləndirilməsi ilə bağlı tövsiyələr verib, onların hərbi-fiziki və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi sahəsində görüləcək işlərin əsas istiqamətlərini diqqətə çatdırıblar.

Sonra gənc müğənnilərin ifasında hazırlanmış vətən, vətənpərvərlik, hərbi mövzulu mahnılar, marşlar səsləndirilib, çağırış xarakterli musiqi nömrələri ifa olunub.

**Mətanət ABDULLAYEVA**
**Daşkəsən Rayon Mədəniyyət Mərkəzinin direktoru**


**Baş redaktor:**
**Elmar Əliyev**
Telefon: (055) 803-03-17
(022) 215-52-83

**Redaksiyanın ünvanı:**
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896 Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437 Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 133
Tiraj: 500